Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 1
(4518) ÇƏRŞƏNBƏ AXŞAMI, 2 YANVAR 2007-ci il Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur www.azerbaijan.news.az Qiyməti 20 qəpik

# Müqəddəs Məkkədə ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir

Yanvarın 1-də müqəddəs Məkkə şəhərində ümummilli lider Heydər Əliyevin xatirəsinə ehsan süfrəsi açılmışdır. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin təşəbbüsü ilə təşkil olunmuş mərasimdə Azərbaycandan, Türkiyədən və digər müsəlman ölkələrindən xeyli zəvvar iştirak etmişdir. Ehsan süfrəsində ulu öndərin, şəhidlərimizin ruhuna dualar oxunmuş, xalqımızın, dövlətimizin əmin-amanlığına, rifahının yüksəlməsinə, torpaqlarımızın düşmən tapdağından azad edilməsinə qadir Allahdan diləklər edilmişdir.

Mərasimdə Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müstəqil dövlətimizin yaranmasında, möhkəmlənməsində və dünya ölkələri arasında nüfuzunun artmasında, milli mənəvi dəyərlərimizin qorunub saxlanmasında, ölkəmizdə məscidlərin, ibadətgahların tikilməsində və bərpasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətlərindən danışmış, ulu öndərimizin amallarının daim yaşayacağını vurğulamışdır. Şeyxülislam demişdir ki, xalqımızın dahi oğlu Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndə əlini Qurana basaraq həyatının qalan hissəsini xalqına bağışlayacağına and içmişdi. Ulu öndər bu andına şərəfli ömrünün sonunadək sadiq qaldı. Azərbaycan xalqı, ölkəmizin dindarları Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin nəcib amallarını yaşadan və inkişaf etdirən fəaliyyətini alqışlayır, dəstəkləyir və dövlətimizin başçısı ilə daim bir yerdə olacaqlarını bəyan edirlər.

Qurban bayramı, ölkəmizin tarixinə Heydər Əliyevin adı ilə daxil olmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və ad günü münasibətilə dövlətimizin başçısı İlham Əliyevi, xalqımızı təbrik edən Şeyxülislam Allahşükür Paşazadə vurğulamışdır ki, ulu öndərin xatirəsinin müqəddəs Məkkədə ehsan süfrəsilə yad edilməsi artıq ənənə halı almışdır. Bu ənənənin davam etdiriləcəyinə əminliyini bildirən Şeyxülislam söyləmişdir ki, ümummilli lider Heydər Əliyevin amallarına, ideyalarına, arzu və istəklərinə sadiqlik Azərbaycana, dövlətimizin başçısı İlham Əliyevə sadiqlik deməkdir.

Mərasimdə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyinin əməkdaşları iştirak etmişlər.

***AzərTAc***